AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 4 (1464), 2 - 8 fevral 2021-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## Dünya çempionatı və dünya yaş qrupları üzrə yarışlarının yeni tarixləri açıqlanıb

Beynəlxalq Gimnastika Federasiyası (FİG) bu ilin noyabrında Bakıda keçirilməsi planlaşdırılan batut gimnastikası, tamblinq və ikili minibatut üzrə 35-ci dünya çempionatının və 28-ci dünya yaş qrupları turnirlərinin yeni tarixlərini açıqlayıb. FİG-nin İcra Komitəsinin qərarına əsasən, həmin yarışlar əvvəl planlaşdırıldığı tarixlərdən bir həftə gec keçiriləcək. Bu dəyişiklik FİG-nin seçki konqresinin 2020-ci ilin oktyabrından 2021-ci ilin noyabrına keçirilməsi ilə əlaqədardır. FİG-nin bu qərarı milli federasiyalara hər iki tədbirdə iştirak etmək imkanı verəcək.

Beləliklə, batut gimnastikası, tamblinq və ikili minibatut üzrə 35-ci dünya çempionatı noyabrın 18-21-də, 28-ci dünya yaş qrupları yarışları isə ayın 26-29-da təşkil olunacaq.





## Azərbaycan Qran-Prisinin keçiriləcəyi vaxt müəyyənləşib

Formula 1 Azərbaycan Qran-Prisinin təqvimi açıqlanıb. Bakı şəhər halqasında yarış iyunun 4-də yerli vaxtla saat 13:30-da start götürəcək. Həmin gün saat 17:00-da ikinci test yürüşü başlayacaq. Növbəti - sonuncu sərbəst yürüş iyunun 5-də saat 14:00-da başlayacaq. Hər üç yürüş bir saat davam edəcək. Sıralama turu iyunun 5-də saat 17:00-da start götürəcək. Azərbaycan Qran-Prisi isə iyunun 6-da saat 16:00-da başlayacaq.

Xatırladaq ki, Formula 1 yarışları Bakıda 2016-cı ildən keçirilir.

## *Bədii gimnastika üzrə qitə çempionatı Macarıstana həvalə edildi*

2024-cü ildə keçiriləcək bədii gimnastika üzrə Avropa çempionatına ev sahibliyi edəcək ölkənin adı məlum olub. Bu barədə "Avropa Gimnastikası"nın rəsmi saytı məlumat yayıb. Turnirin Macarıstanın paytaxtı Budapeştdə təşkil olunacağı bildirilib.

Qeyd edək ki, 2020-ci ildə Avropa çempionatı Ukraynanın paytaxtı Kiyevdə təşkil olunub.



## *Anons*

*AFFA-nın növbəti konfransı keçirilib* Səh. 2

MOK-un vitse-prezidenti Xəzər İsayevin 58 yaşı tamam oldu Səh. 2

İlham Zəkiyev: "Müasir dövrdə əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası üçün ən kütləvi vasitə idmandır" Səh. 3

*ADBTİA-da qadın idmançı kadrların hazırlanmasına xüsusi diqqət yetirilir* Səh. 4

İdmanda baş verən qeyri-adi hadisələr və qeydə alınan faktlar Səh. 5

*Avropadan transfer xəbərləri* Səh. 6

"Qol düşməni" Səh. 7

## Olimpizm

### *Çin Olimpiya oyunlarını təsdiqlənmiş plana uyğun keçirmək niyyətindədir*

Çin hökuməti 2022-ci ildə Pekin Qış Olimpiya Oyunlarını təsdiqlənmiş plana uyğun keçirmək niyyətindədir.

Bu barədə Çin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Van Venbin bildirib.




O, qeyd edib ki, yeni koronavirus pandemiyasına baxmayaraq planlaşdırılan bütün idman tədbirlərinin baş tutması üçün fəal səylər göstərilir: "Çinin hər şeydən əvvəl pandemiyanın qarşısının alınmasına və iqtisadiyyatın bərpasına, Qış Olimpiya Oyunları üçün əlverişli şərait yaradılmasına diqqət yetirdiyini vurğulamaq istərdim. Əminik ki, Pekin-2022 yüksək səviyyədə keçiriləcək".

Diplomat Pekinin koronavirusla mübarizə üçün sərt tədbirləri davam etdirdiyini də xatırladıb.

### *Olimpiya seçmə turnirinin vaxtı dəyişdirildi*

Yaponiyanın paytaxtı Tokioda sinxron üzgüçülük üzrə Olimpiya seçmə turniri mayda keçiriləcək. Bu barədə Beynəlxalq Üzgüçülük Federasiyası məlumat yayıb. Turnir mayın 1-4-də təşkil olunacaq. Bu qərarın səbəblərindən biri də koronavirus infeksiyasına görə, Yaponiyada fövqəladə vəziyyətin fevralın 7-dək tətbiqi olub. Səlahiyyətli nümayəndələr bu müddətin daha bir ay uzadılmasını düşünürlər. Xüsusilə, bu tədbirlər çərçivəsində əvvəllər əcnəbi idmançılar və xaricdən vətənlərinə qayıdan yapon idmançıları üçün tətbiq olunan güzəştlər ləğv edilib.

Turnirin əvvəlcə martın 4-7-də təşkili nəzərdə tutulmuşdu.

Xatırladaq ki, Tokio Olimpiadası 2020-ci il iyulun 24-dən avqustun 9-dək keçirilməli idi. Ancaq pandemiya səbəbindən yarış bir il sonraya təxirə salınıb. Olimpiadanın iyulun 23-dən avqustun 8-dək keçirilməsi planlaşdırılır.

### *Olimpiya Oyunlarının üçqat mükafatçısı karyerasını başa vurdu*

Məşhur almaniyalı biatlonçu Simon Şempp idman karyerasını bitirməsi barədə açıqlama verib. Bu barədə idmançı şəxsi instaqam hesabında yazıb. S.Şempp qeyd edib ki, karyerası ərzində əmək, iradə, ambisiyalar və hirs gec ya tez öz nəticəsini verdi. Almaniyalı idmançı son zamanlarda bədəninin təzyiqlərə tab gətirmədiyini görüb, karyerasını bitirmək qərarına gəlib.

Qeyd edək ki, Simon Şempp 2010-cu və 2015-ci illərdə dünya çempionatının qalibi olub. 2017-ci ildə dünya çempionatının iki qızıl medalını əldə edib. İdmançı həmçinin 2014-cü ildə Soçidə keçirilən Olimiya Oyunlarının ikincisi olub, 2018-ci ildə Pxenyanda təşkil olunan Olimpiya Oyunlarının isə gümüş və bürünc medalının sahibidir.

# AFFA-nın növbəti konfransı keçirilib



AFFA-nın videokonfrans formatında növbəti konfransı keçirilib. Səsvermə hüququna malik 35 nümayəndədən 34-ü konfransda iştirak etdiyindən yetərsay təsdiqlənib.

AFFA-nın prezidenti Rövnəq Abdullayev bildirib: "Təxminən bir ildən çoxdur dünyanın əksər ölkələri COVİD-19 pandemiyası ilə mübarizə aparır. Pandemiya dövrünün öz tələbləri var. Biz də bu amilləri nəzərə alaraq, bu gün videokonfrans formatında görüşürük. Əlbəttə, pandemiya ilə bağlı 2020-ci ili çətin və bəlkə də uğursuz adlandırmaq olardı. Lakin ötən il bizim üçün hər zaman Zəfər ili kimi xatırlanacaq. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz 30 ilə yaxındır işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etdi. Böyük Qələbə münasibətilə hər birinizi təbrik edirəm. Vətən müharibəsində AFFA-da qeydiyyatdan keçmiş, Azərbaycan futbol ailəsinin 191 üzvü də şəhidlik zirvəsinə ucalıb. Allah bütün şəhidlərimizə rəhmət eləsin!".

Assosiasiyanın icraçı vitse-prezidenti Elxan Məmmədov məlumat verib ki, UEFA-nın baş katibi Teodor Teodoridis AFFA-nın konfransına videomüraciət ünvanlayıb və videomüraciət nümayiş olunub.

Sonra E.Məmmədov ötən il AFFA tərəfindən həyata keçirilmiş tədbirlər barədə hesabat məruzəsi ilə çıxış edib. Ardınca hesabat videoçarxı nümayiş olunub.

AFFA-nın maliyyə və mühasibatlıq departamentinin rəisi Xalid Cavadov və müstəqil auditor Elnur Kazımov da hesabat məruzələri ilə çıxış ediblər.

E.Məmmədov məlumat verib ki, Avro-2020-nin oyunlarının keçiriləcəyi şəhərlərdə ekoloji vəziyyətə töhfə vermək, çempionatın futboldankənar uzunmüddətli irsinin saxlanılması ilə bağlı UEFA İcraiyyə Komitəsi ev sahibi şəhərlərdə 50 min ağacın əkilməsi barədə qərar qəbul edib. AFFA UEFA-nın bu təşəbbüsünü müsbət qarşılayıb. AFFA ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu" Açıq Səhmdar Cəmiyyəti arasında bağlanmış müqaviləyə əsasən, müxtəlif yaşıllaşdırma idarələrinin ərazisində 50 min 600 ağac əkilib. Ağacların bir qismi Xocasən gölünün ətrafında, digər hissəsi isə hava limanı magistral yolunun Suraxanı rayonu ərazisindən keçən hissəsinin ətrafında əkilib.

Konfransda bununla bağlı hazırlanmış videoçarx nümayiş etdirilib.

Sonra AFFA-nın texniki direktoru Cahangir Həsənzadə çıxış edərək gənclərdən ibarət milli komandaların hazırlıq prosesi və turnirləri barədə məlumat verib.

FİFA nümayəndəsi Nodar Axalkatsi çıxışında FİFA tərəfindən AFFA-nın konfransına ünvanlanmış fikirləri səsləndirib.

Konfransın nümayəndəsi Oqtay Abdullayev Tovuzda "Turan-Tovuz" klubunun nəzdində inşa olunmuş Futbol Akademiyasının istifadəyə verilməsi ilə bağlı AFFA rəhbərliyinə minnətdarlığını bildirib.

Konfrans başa çatdıqdan sonra İcraiyyə Komitəsinin iclası keçirilib.

# MOK-un vitse-prezidenti Xəzər İsayevin 58 yaşı tamam oldu



Fevralın 1-də Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının sədri, Dövlət Gömrük Komitəsinin İdman Sağlamlıq Mərkəzinin baş direktoru, gömrük xidməti polkovniki Xəzər İsayevin 58 yaşı tamam olur. 1963-cü il fevralın 1-də Ağdaş şəhərində anadan olan Xəzər İsayev sərbəst güləş üzrə dünya (1986-cı il) və ikiqat Avropa çempionu (1986, 1987-ci illər), SSRİ və Azərbaycanın əməkdar idman ustasıdır. O, 1986-cı ildə "Xoş məramlı oyunlar"ın ("İqrı dobroy voli"), 1987-ci ildə dünya çempionatının gümüş medallarını qazanıb, 1987-ci ildə Dünya kubokunun sahibi olub. Xəzər İsayev 1992-ci ildə Azərbaycan Respublikasının Əməkdar məşqçisi adını alıb. 2002-ci ildə "Şöhrət" ordeni ilə təltif edilib. 2007-ci ildə isə Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəsi və İdman Xadimi fəxri adına layiq görülüb. O, 2012-ci ildə "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 20 illiyi (1992-2012)" Azərbaycan Respublikası yubiley medalı, 2013-cü ildə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 2017-ci ildə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni, 2018-ci ildə "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 25 illiyi (1992-2017)" Azərbaycan Respublikası yubiley medalı, 2019-cu ildə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat Orqanlarının 100 illiyi (1919-2019) Azərbaycan Respublikası yubiley medalları ilə təltif edilib. Ailəlidir, 2 övladı var.

"Olimpiya dünyası" qəzeti olaraq çoxsaylı oxucularımız adından Xəzər İsayevi doğum günü münasibətilə təbrik edirik.

# Milli komandalarımız "Böyük dəbilqə" turnirinə Türkiyədə hazırlaşır

***Qadın və kişi cüdoçulardan ibarət Azərbaycan milli komandası Türkiyədə təlim-məşq toplanışında iştirak edir. Fevralın 1-də başlayan hazırlıq prosesi 10 gün davam edəcək. Bu barədə "Olimpiya dünyası" qəzetinə Azərbaycan Cüdo Federasiyasının baş katibi Elmar Babanlı məlumat verib.***

Federasiya rəsmisi hazırlıq prosesində hər iki yığmanın liderləri ilə yanaşı, bəzi gənc idmançıların da iştirak edəcəyini bildirib: "Təlim məşq toplanışında kişi cüdoçulardan ibarət komandamızın heyətində Kəramət Hüseynov, Davud Məmmədsoy (hər ikisi 60 kq), Orxan Səfərov, Nicat Şıxəlizadə (hər ikisi 66 kq), Rüstəm Orucov, Telman Vəliyev (hər ikisi, 73 kq), Zelim Tckayev, Hidayət Heydərov (hər ikisi 81 kq), Məmmədəli Mehdiyev (90 kq), Elmar Qasımov, Zelim Kotsoyev (hər ikisi 100 kq) Uşangi Kokauri, Camal Feyziyev (hər ikisi +100 kq) iştirak edəcək. Qadınların yarışında isə Aişə Qurbanlı, Leyla Əliyeva (hər ikisi 48 kq), Gültac Məmmədəliyeva (52 kq) güclərini sınayacaqlar. Qadınlardan isə hazırlığa Aişə Qurbanlı, Leyla Əliyeva (hər ikisi 48 kq), Gültac Məmmədəliyeva (52 kq) və bəzi gənc cüdoçular aparılacaq. Son iki yarışda gümüş medal qazanaraq fəxri kürsüdə yer alan millimizin lideri İrina Kindzerska (+78 kq) isə hazırlıq prosesində iştirak etməyəcək. O, öz ölkəsində fərdi məşqçisinin nəzarəti altında xüsusi proqramla çalışır. Qadınlardan ibarət millimiz Ədirnədə Türkiyə və Bolqarıstan, kişilər isə Antalyada Türkiyə cüdoçuları ilə birgə məşq edəcəklər".

Elmar Babanlı həmçinin Rüstəm Orucov (73 kq) və İrina Kindzerskanın (+78 kq) fevralın 18-20-də Təl-Əvivdə keçiriləcək cüdo üzrə "Böyük dəbilqə" turnirində iştirak etməyəcəyini bildirib. O, hər iki idmançının adının məşqçilər heyətinin qərarına əsasən, heyətdən çıxarıldığını deyib. "Cüdoçularımız təlim-məşq toplanışından qayıdandan sonra İsrailə "Böyük dəbilqə" turnirinə yollanacaqlar. Yarışda 12 kişi və 3 qadın cüdoçumuz iştirak edəcək. Rüstəm Orucov və İrina Kindzerska bu yarışda iştirak etməyəcəklər. Onlar bizim əsas Olimpiya ümidlərimizdəndirlər. Hər iki idmançının kifayət qədər reytinq xalı var. Bu səbəbdən də zədə riskini nəzərə alan məşqçilər heyəti onların adlarını siyahıdan çıxarıb", - deyə E.Babanlı qeyd edib.

Qeyd edək ki, "Böyük dəbilqə" turnirində 68 ölkədən 443 (268 kişi, 175 qadın) idmançı öz iştirakını təsdiqləyib.



## Millimizin seçmə mərhələdəki oyunlarının tam təqvimi müəyyənləşdi

Kişi voleybolçulardan ibarət Azərbaycan millisinin Avropa çempionatının seçmə mərhələsindəki oyunlarının tam təqvimi bəlli olub. Yığmamızın yer aldığı F qrupunda ikinci dövrənin oyunlarının vaxtı açıqlanıb. Komandalar Monteneqroda qüvvələrini sınayacaqlar. Millimiz mayın 14-də Monteneqro, ertəsi gün Gürcüstan, sonuncu turda Yunanıstan seçməsi ilə qarşılaşacaq.

Qeyd edək ki, Gürcüstanda keçiriləcək ilk dövrənin oyunlarında isə millimiz mayın 7-də Monteneqro, ertəsi gün meydan sahibləri, ayın 9-da isə Yunanıstan yığması ilə üz-üzə gələcək.

## Boks üzrə dünya çempionatının tarixi açıqlandı

Polşanın Keltse şəhərində təşkil olunacaq gənclər arasında boks üzrə dünya çempionatının vaxtı açıqlanıb. Oğlan və qız boksçuların iştirak edəcəyi çempionat aprelin 10-24-də təşkil olunacaq. Polşa yarışı cədvələ uyğun şəkildə yüksək səviyyədə keçirəcəyini təsdiqləyib. Təşkilatçılar, həmçinin bütün təhlükəsizlik tədbirləri ilə bağlı öhdəlik götürüblər.



## İsveçin imtina etdiyi Avropa çempionatına Xorvatiya ev sahibliyi edəcək

Karate üzrə Avropa çempionatının keçiriləcəyi yer müəyyənləşib. Qitə çempionatı mayın 19-dan 23-dək Xorvatiyanın Poreç şəhərində təşkil olunacaq.

Qeyd edək ki, yarışın əvvəlcə İsveçin Göteborq şəhərində keçirilməsi planlaşdırılmışdı. Ancaq koronavirus pandemiyası ilə bağlı vəziyyətin pisləşməsi səbəbindən İsveç turniri keçirməkdən imtina etmişdi.

## Qrossmeysterimiz FİDE reytinqində geriləmdi

Beynəlxalq Şahmat Federasiyası (FİDE) yeni reytinq siyahısını açıqlayıb. İlk "10-luq"da Azərbaycanın 2 təmsilçisi yer alıb. Şəhriyar Məmmədyarov bir pillə geriləyərək 2770 xalla 9-cu olub. 2765 xalı olan Dünya Kubokunun qalibi Teymur Rəcəbov isə 10-cu yerdə qərarlaşıb. Qədir Hüseynov (2665) 3 pillə irəliləyərək 71-ci yerlə kifayətlənib. Nicat Abbasov (2664) isə 4 pillə geriləyib və 70-cı sırada qərarlaşıb. 5 pillə irəliləyən Rauf Məmmədov isə 87-ci yerdədir.

Reytinqin ilk pilləsində 2862 xalla norveçli dünya çempionu Maqnus Karlsendir. ABŞ şahmatçısı Fabiano Karuana (2823) ikinci, çinli Dinq Liren (2791) üçüncüdür.

Qadın şahmatçılardan Günay Məmmədzadə 3 pillə irəliləyərək 2443 xalla 28-ci yerə yüksəlib. Bir pillə geriləyən Gülnar Məmmədova (2382) 80-cidir. 2376 xalı olan və 1 pillə irəliləyən Xanım Balacayeva 89-cu sırada qərarlaşıb.

## *Avropa Olimpiya seçmə turniri və qitə çempionatı İtaliyada keçiriləcək*

Beynəlxalq Avarçəkmə Federasiyasının İcraiyyə Komitəsi Avropa Olimpiya seçmə turniri və qitə çempionatının keçirilməsi ilə bağlı qərar qəbul edib. Bu barədə qurumun rəsmi saytında məlumat verilib. Yarışlar İtaliyanın Varese şəhərində, müvafiq olaraq aprelin 5-7-də və 9-11-də təşkil olunacaq. Turnirlər zamanı Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyələri xüsusilə nəzərə alınmaqla, pandemiya şəraitində lazımi bütün tədbirlərin görüləcəyi bildirilib. Belə ki, İtaliyada bütün komanda üzvlərindən hər zaman maskada olmaları tələb olunacaq. Təşkilatçılar sosial məsafəni və antiseptiklərin istifadəsini də ciddi şəkildə tətbiq edəcəklər.



## Şəhid idmançıların ailələri ziyarət edilib

Millət vəkili, Gənclər və İdman Komitəsinin üzvü Müşviq Cəfərov, Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Həmid Nəsirov və Gəncə İdman Klubu İB-nin sədri Elvar Osmanov Vətən müharibəsində şəhid olan idmançıların ailələrini və idmançı qazini ziyarət edib. Rəsmilər şəhidlər Röyan Hüseynov və Rəşid Babayevin ailələrini ziyarət edərək onların qayğıları və narahat edən məsələlərlə maraqlanıb, təkliflərini dinləyiblər. Görüşdə şəhidlərin keçdikləri döyüş yolundan, onlarla bağlı xatirələrdən danışılıb.

Rəsmilər Vətən müharibəsinin qaziləri Elşad Eynullayev ilə də görüşərək, onunla söhbət ediblər. Görüşdə Azərbaycan Ordusunun düşmən üzərindəki inamlı qələbəsindən, əsgər və zabitlərimizin qəhrəmanlığından söz açılıb. Onları narahat edən məsələlərin tezliklə həll olunacağına ümid etdiklərini bildirən qazi və sakinlər, göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

## “Vətən müharibəsi iştirakçılarının tanıdılması silsiləsi” adlı onlayn görüş olub



Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsi və Gəncə Gənclər Evinin birgə təşkilatçılığı və gənclərin iştirakı ilə “Vətən müharibəsi iştirakçılarının tanıdılması silsiləsi” adlı layihə çərçivəsində onlayn tədbir təşkil olunub. Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsindən “Olimpiya dünyası” qəzetinə verilən məlumata görə tədbirin qonaqları İkinci Qarabağ Müharibəsinin qazisi Sərxan Yolçuyev, Ruzigar Abdullayev və kapitan Vüsal Qazıyev olublar. Görüş Gəncə Gənclər Evinin rəhbəri Amil Qurbanov, Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin gənclərlə iş sektorunun müdiri Rəşad Əlizadə, Gəncə Gənclər Evinin əməkdaşları, könüllülər və fəal gənclərin iştirakı ilə onlayn qaydada təşkil olunub.

Tədbiri giriş sözü ilə açan Gəncə Gənclər Evinin rəhbəri Amil Qurbanov görüşün əhəmiyyətini və davamlı baş tutacağını qeyd edib. O, çıxışı zamanı Vətən müharibəsi iştirakçılarının tanıdılması məsələlərinin aktuallığını vurğulayıb.

Sonra torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə sinəsini düşmən gülləsinə sipər edən, qəhrəmancasına həlak olan şəhidlərimizin ruhu 1 dəqiqəlik sükutla yad edilib.

Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin gənclərlə iş sektorunun müdiri Rəşad Əlizadə gənclərin vətənpərvər ruhda yetişdirilməsi mövzusunun vacibliyini bildirib.

Vətən müharibəsində könüllü olaraq iştirak edən qazimiz Sərxan Yolçuyev Azərbaycan əsgərinin döyüş meydanında göstərdiyi qəhrəmanlıqdan danışaraq, torpaqlarımızı azad edəcəyimizə hər an inandığını qeyd edib.

Bildirək ki, Vətən müharibəsinin qəhrəmanlarından biri olan Sərxan Yolçuyev Murovdağ uğrunda gedən döyüşlərdə ağır yaralanıb.

Daha sonra Vətən müharibəsinin iştirakçısı Ruzigar Abdullayev torpaq sevgisi ilə qəlbləri çırpınan və canından keçən döyüşçülərimizin igidliyindən və döyüş xatirələrindən danışıb.

Vətən müharibəsində Cəbrayıl, Qubadlı və Laçın rayonlarının azad olunmasında bölük komandirinin müavini vəzifəsində iştirak edən Vüsal Qazıyev müharibə xatirələrindən danışaraq, şəhidlərimizin, qanlı döyüşlərdə yaralanmış əsgər və zabitlərimizin igidliyini və fədakarlığını heç vaxt unutmayacağını vurğulayıb.

Qeyd edək ki, görüşdə 40 nəfərdən artıq gənc iştirak edib.

## Zəka sahibləri bu dəfə “Zangilan Cup” turnirində yarışıblar

“Karabakh is Azerbaijan” onlayn şahmat seriyasının üçüncü turniri olan “Zangilan Cup” turniri keçirilib. Chess.az saytının təşkil etdiyi Azərbaycan, Türkiyə və Ukraynadan yüzdən çox şahmatçının iştirak etdiyi seriyanın budəfəki yarışında 58 zəka sahibi mübarizə aparıb. Turnirdə ən yüksək nəticəni türkiyəli şahmatçı Kutay Sakmak göstərib. İkinci və üçüncü yerləri Azərbaycan şahmatçıları İsmayıl Qurbanov və Orxan Bağırov tutublar.

Üç turnirin nəticəsinə görə, ümumi hesabda Azərbaycan şahmatçısı Elnur Mehtiyev 20 xalla ilk yerdədir. Kutay Sakmak (16 xal) ikinci, Orxan Bağırov (14 xal) üçüncü pillədə qərarlaşıblar.

Qeyd edək ki, seriya çərçivəsində bundan əvvəl “Jabrail Cup”, “Fuzuli Cup” turnirləri keçirilib. Seriya ümumilikdə 8 turnir və böyük finaldan ibarət olacaq. Hər bir turnir işğaldan azad olunmuş şəhərlərimizin adını daşıyacaq. Səkkiz turnirin hər birində ilk altı yeri tutmuş şahmatçılar böyük finala düşmək üçün xallar qazanacaqlar.




Seriyanın sonunda, ən çox xal toplamış ilk 10 şahmatçı martın 14-də keçiriləcək böyük finalda oynamaq hüququ əldə edəcək.

# İlham Zəkiyev:

## “Müasir dövrdə əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası üçün ən kütləvi vasitə idmandır”

***44 günlük Vətən müharibəsində müzəffər ordumuzun qazandığı qələbələr Azərbaycanın hərb tarixində şanlı bir səhifə açdı. Ordumuz bu qələbələr sayəsində həm də təqvimdə tarixi günlər yazdı. İşğal tarixləri təqvimdən silindi, yerinə qələbə günləri ilə yadda qalacaq bir savaş salnaməsi yazıldı. Bu qələbələrin memarları isə sözsüz ki, Azərbaycanın müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev və qəhrəman hərbçilərimiz oldu.***



Vətən müharibəsinin iştirakçıları, Qarabağ qaziləri və şəhid ailələri dövlətimiz tərəfindən diqqətdə saxlanılır. Azərbaycan Milli Paralimpiya Komitəsi də Vətən müharibəsinin qazilərini diqqətdə saxlayır, onlarla mütəmadi olaraq görüşlər təşkil edir. Komitədən dəfələrlə qazilərə Paralimpiya Hərəkatına qoşulması ilə bağlı müxtəlif çağırışlar olub. Qeyd edək ki, müharibə ilə bağlı əlilliyi olan şəxslər bu günə qədər də paralimpiya və milli komandalarımızın tərkibində iştirak edərək ölkəmizin idman şərəfini idmançı kimi, beynəlxalq arenalarda uğurla qoruyurlar. Belə idmançılarımızın arasında ikiqat paralimpiya çempionu, Qarabağ qazisi İlham Zəkiyev, güllə atıcılığı idman növü üzrə komandanın baş məşqçisi Əkbər Muradov, həmin komandanın üzvü Elşən Cəbiyev, kamandan oxatma üzrə milli komandanın baş məşqçisi İlqar Abbasov kimi qazilərimiz var.



Əməkdar idman ustası, ikiqat Paralimpiya və dünya, yeddiqat Avropa çempionu, Qarabağ müharibəsi veteranı İlham Zəkiyev “Olimpiya dünyası” qəzeti vasitəsi ilə Vətən müharibəsinin qazilərinə çağırış etdi. O, qazilərimizi Paralimpiya Hərəkatına qoşulmağa və özlərini paralimpiya idman növlərində sınamağa səslədi.

### “Qazilərimiz hələ ki, reabilitasiya mərhələsi keçir, müalicə alırlar”

“Bildiyiniz kimi, Milli Paralimpiya Komitəsi hər zaman olduğu kimi, qazilərimizə və fiziki imkanları məhdud olan gənclərə həssaslıqla yanaşaraq, onlara özlərini Paralimpiya Hərəkatında sübut etmək üçün imkanlar yaradıb. Bu yaxınlarda Azərbaycan Milli Paralimpiya Komitəsində Vətən müharibəsinin qaziləri ilə görüş keçirildi. Bu görüşdə əsas məqsəd İkinci Qarabağ Müharibəsinin qazilərinin idmana cəlb edilməsi, sağlamlıq problemlərinə və əlilliyə baxmayaraq, ruhdan düşməmələri üçün dəstək olmaq idi. Görüş zamanı Vətən müharibəsinin qaziləri ilə geniş söhbət etdik. Düzdür, onların Paralimpiya Hərəkatı barədə müəyyən qədər məlumatları var idi. Biz qazilərə özlərini paralimpiya idman növlərində sınamalarını təklif etdik. Onlar Paralimpiya Hərəkatına qoşularaq idman vasitəsilə ölkəmizi beynəlxalq arenalarda təmsil etməyə hazır olduqlarını bildirdilər. Qazilərimiz hələ ki, reabilitasiya mərhələsi keçir, müalicə alırlar. Onların reabilitasiyası üçün müəyyən qədər vaxt lazımdır. Bərpa mərhələsindən sonra Paralimpiya Komitəsinə müraciət edənlər qeydiyyata alınaraq, peşəkar məşqçilərimizə yönləndiriləcəklər. Əlilliyin dərəcəsinə görə həmin qazilərimizin qarşısına seçim qoyulacaq və hansı idman növündə özünü sınamaq istəyərlərsə, onlara peşəkar məşqçilərimiz tərəfindən köməklik ediləcək. Qeyd edim ki, bizim 17-dən çox idman növümüz var. Həmin idman növlərində onlar özlərini sınayaraq yenə də böyük qələbələrə imza ata bilərlər. İnanıram ki, qazilərimiz yaxın gələcəkdə döyüş zamanı dalğalandırdıqları üçrəngli bayrağımızı işğaldan azad edilmiş torpaqlarımızda mötəbər yarışlarda növbəti dəfə zirvələrə ucaldacaqlar”, - deyə İlham Zəkiyev bildirib.

### “Onlar bizim qəhrəmanlarımızdır”

Paralimpiya çempionumuzun qeyd etdiyi kimi, bu gün sağlamlıq imkanları məhdud olan qazilərimiz beynəlxalq arenada ölkəmizi təmsil edərək yenə də Azərbaycan bayrağını dalğalandıra bilərlər. Bu Paralimpiya Komitəsinin onlar üçün təklif etdiyi bir uğur yoludur. Paralimpiya Hərəkatı, paralimpiya dəyərlərinin təbliği, əlilliyi olan şəxslərin idman vasitəsi ilə cəmiyyətə inteqrasiya olunması olduqca mühüm məsələdir. Bunun üçün hər birimiz üzərimizə düşən məsuliyyəti dərk etməli, bu sahənin inkişafı üçün əlimizdən gələni əsirgəməməliyik. Qarabağ qazisi İlham Zəkiyev də elə söhbət zamanı bu məsələlərə toxundu. Paracüdoçumuz həmçinin fiziki məhdudiyyətli insanlara təkcə idmanda deyil, digər sahələrdə də özlərini tapmaq üçün şansların yaradıldığını dedi.

“Fürsətdən istifadə edib qəzetiniz vasitəsi ilə bir daha Vətən müharibəsinin qazilərinə və onların ətrafında olan şəxslərə müraciət edərək onları Paralimpiya Hərəkatına qoşulmağa dəvət edirəm. Təbii ki, onların da arasında dünya, Avropa və paralimpiya çempionları olacaq. Düzdür, müasir dövrdə əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası üçün ən kütləvi vasitə idmandır. Bu gün ölkəmizdə bu istiqamətdə mühüm addımlar atılır və kifayət qədər müsbət nəticələr əldə edilir. Lakin mütləq deyil ki, Vətən müharibəsinin qazilərinin hər biri idmanla məşğul olsunlar. Qeyd edim ki, bu yaxınlarda əlil arabasında olan 3 nəfər xanım yerli telekanalların birində işlə təmin olundu. Bundan başqa digər belə fiziki qüsurlu insanlara bu və ya digər məsələlərdə köməklik edilib. Yəni gələcəkdə onların qarşısında yeni imkanlar açılacaq, cəmiyyətə inteqrasiya olmaq üçün müxtəlif yollar axtarılacaq. Mən özüm də Qarabağ qazisi olaraq onlarla mütəmadi görüşlər təşkil edib, söhbət edəcəyəm. Onlar bizim qəhrəmanlarımızdır, hər zaman diqqət və qayğıya layiq insanlardırlar. İnanıram ki, döyüş meydanında zəfər qazanan qəhrəman qazilərimiz bundan sonra da idman arenalarında öz qələbələri ilə xalqımızı sevindirəcəklər”, - deyə ikiqat paralimpiya çempionumuz vurğulayıb.

Qeyd edək ki, İlham Zəkiyev 1999-cu ilin fevralında Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən Ermənistan tərəfindən atılan snayper gülləsinə tuş gəlib. Görmə qabiliyyətini tamamilə itirən I qrup Qarabağ əlili olan İlham Zəkiyev buna baxmayaraq, “Həyat mübarizədir” devizini rəhbər tutaraq, 2002-ci ilin noyabr ayında Paralimpiya Hərəkatına qoşulub.

*Azər Əlizadə*

# ADBTİA-da qadın idmançı kadrların hazırlanmasına xüsusi diqqət yetirilir



*Dilqəm Quliyev,
pedaqogika üzrə
elmlər doktoru,
professor*

Ümummilli liderimiz Heydər Əliyev hələ 1969-cu ildə Azərbaycan Respublikasına rəhbərliyə gələndə milli təhsilimizin inkişafına çox böyük önəm verərək yüzlərlə gəncin keçmiş SSRİ-nin və dünyanın müxtəlif ölkələrində keyfiyyətli təhsil almalarına şərait yaratmışdı. O bu ənənəsinə sadiq qalaraq ikinci dəfə ölkə rəhbərliyinə qayıtdıqdan sonra da həm keçmiş Sovet İttifaqına daxil olan ölkələrlə, həm də dünyanın digər qabaqcıl ölkələri ilə elm, mədəniyyət, idman və təhsil sahələrində əlaqəni bərpa etdi, həmin ölkələrdə gənclərimizin dünya standartlarına uyğun keyfiyyətli təhsil almalarına şərait yaratdı.

İdman hər yaşda insanların sağlamlığı ilə bərabər, onların harmonik inkişafına da şərait yaradır, şagirdlərdə doğma məktəbin, tələbələrdə ali təhsil ocaqlarının, ümumilikdə isə Vətənin şərəfini müdafiə etmək kimi müsbət keyfiyyətlər tərbiyə edir. Buna görə də, idmanın kütləviliyi gənc nəslin mənəvi və fiziki inkişafı üçün vacibdir. Ümummilli lider Heydər Əliyev fiziki tərbiyə və idmanın inkişafına çox böyük diqqət ayırmış və öz çıxışlarının birində bu barədə belə demişdir: “İdmanın və bədən tərbiyəsinin inkişafı üçün görülən işlər, gələcəkdə görəcəyimiz işlər, dövlətin və hökumətin siyasətinin əsas istiqamətlərindən biridir”.

## İllər keçdikcə qadın idmançıların sayı artmışdır

1930-u ilin 7 noyabr günü Azərbaycan idmançıları üçün ikiqat bayram oldu, həmin gün Bakıda Zaqafqaziya Dövlət Bədən Tərbiyəsi İnstitutu açıldı. Qızlar da oğlanlarla birlikdə institutda oxumağa başladılar. Onların arasında institutda təhsil alan yeganə azərbaycanlı qızı Məsumə Fərzəliyeva vardı. İnstituta ilk dəfə qəbul olunan qızların sayı altı nəfər idi.

Sonrakı illərdə (1933-1940) institutu 335 nəfər, o cümlədən 93 qadın bitirdi. Onlardan beş nəfəri azərbaycanlı idi. Muradova Raziya Ağarəhim qızı 1933-cü ildə diplom ala bilmədiyinə görə o, 1940-cı ildə institutu bitirərək diplom almışdır. Həmin illəri (1939-cu il) Humay Zərgərli, Zeynab Məmmədova və Nina Sultanova məzun olmuşlar.

1935-ci ilin oktyabrında həmkarlar ittifaqları kollektivlərinin atletika üzrə yarışlarında kişilərlə bərabər qadınlar da çıxış edirdi. Bu yarışlarda qadınlarımız tərəfindən bir neçə Zaqafqaziya və respublika rekordu qazanılmışdır. İştirakçılar arasında Sona Qasımovanın (atletika) müvəffəqiyyətli çıxışı uğurlu addımlardan idi. 1937-ci ildə isə Bakıda keçirilmiş qardaş respublikaların spartakiadasında Zaqafqaziya rekordu müəyyən etmişdir. Sona Qasımova 1949-cu ildə Gəncə Bədən Tərbiyəsi Texnikumunu, 1953-cü ildə isə Azərbaycan DBTİ-ni bitirdikdən sonra Zaqatalada işləmişdir. Onun əməyi medallar və fəxri fərmanlarla təltif olunmuşdur. Respublikanın idman həyatında fəal iştirak etdiyinə görə 1964-cü ildə ona Azərbaycan SSR Əməkdar bədən tərbiyəsi və idman xadimi fəxri adı verilmişdir.

İkinci dünya müharibəsi illərində bir çox azərbaycanlı qadınların göstərdiyi misilsiz hünərdən az yazılmayıb. Belə qadınlardan mahir atıcı Ziba Qəniyeva və ilk azərbaycanlı təyarəçi qadın Züleyxa Seyidməmmədovanı xüsusi ilə qeyd etmək lazımdır. Bu igid qadınlar şöhrətin zirvəsinə idmanda qazandıqları iradə, dözüm və cəsarət kimi fiziki keyfiyyətlər sayəsində çatmışlar. 1936-cı ildə 62 nəfər qadının Hacıkənd-



Bakı atlı yürüşü, 1938-ci ildə 14 nəfər gənc idmançı qızın min kilometrlik məsafəyə 17 günlük velosiped yürüşü Azərbaycan qadınlarının idman sahəsində əldə etdikləri böyük nailiyyətlərə gözəl sübutdur.

1941-ci ildən 1976-cı illərə kimi institutu 1089 qadın bitirmişdir. Onlardan 114 nəfər azərbaycanlı qızlar olmuşdur. Göründüyü kimi, illər keçdikcə qadın idmançı qızlarının sayı artmışdır.

Azərbaycan qadınlarının 1957-ci ildə çağrılmış qurultayından sonra institutda qadınlar arasında bədən tərbiyəsi və idman böyük vüsətlə inkişaf etməyə başladı. 1961-ci ildə Bakı şəhərinin I qadın spartakiadasını keçirmək qərara alındı!. Spartakiadanın proqramına idmanın 16 növü üzrə yarışlar daxil edilmişdi. Bu yarışlarda atletika üzrə idman ustası Ziba Ələsgərova, gimnastika üzrə idman ustası Məsmə Məmmədova, Züleyxa Hacıyeva, Adilə Yenigeyeva və başqaları uğurla çıxış etmişlər.

1957-ci ildə Zaqafqaziya respublikaları və Moldaviyada SSRİ xalqlarının ənənəvi VIII spartakiadasında Azərbaycanın voleybolçu qadınları mükafata layiq görülərək, ikinci yerə çıxmışlar. Bu uğurlar əlbəttə, təsadüfi idman qələbələri deyildi. Artıq həmin illər, Azərbaycan bədən tərbiyəsi hərəkatında fəal iştirak edən qadınların sayı 20 mini keçmişdi.

1962-ci il oktyabrın 24-27-də Bakıda qadınlar arasında bədən tərbiyəsi işi üzrə təcrübə mübadiləsinə həsr olunmuş I ümumittifaq müşavirəsi keçirildi. Bu, respublikada qadınlar arasında bədən tərbiyəsi və idmanın təbliğatı üçün mühüm stimul olmuşdur.

1962-ci il Qahirədə dünya gənclərinin çempionatında Bakı qılınc oynadanı Karalina Mirzəyeva qızıl medal, üzgüçü V.Jenyenkova Helsinkidə keçirilən VII Ümumdünya tələbə və gənclər festivalında gümüş medal qazandılar. Voleybolçu İnna Rıskal SSRİ yığma komandasının heyətində dünya çempionu oldu.

1969-cu ildən sonra Azərbaycanda bədən tərbiyəsi və idmana dövlət qayğısı nəticəsində idmançı qadın kadrları artmağa başlamışdır. 1971-ci ildə 4507 nəfər fəaliyyət göstərirdi ki, onların cəmi 70 faizinin xüsusi bədən tərbiyəsi təhsili vardı. Həmin illərdə Azərbaycanda 5569, bədən tərbiyəsi kollektivində 750 min nəfər bədən tərbiyəsi və idmanla məşğul olurdu. Bunların 22 faizini qadınlar təşkil edirdi.

1971-ci il iyulun 16-da Ümumittifaq spartakiadasında Azərbaycanın həndbolçu qızları gümüş medal qazandılar. XXI yay Olimpiya Oyunlarında Rəfiqə Şabanova, Lyudmila Şubina çempion olmuşlar: Larisa Savkina isə 1980-cı ildə XX Moskva Yay Olimpiya Oyunlarının çempionu olmuşdur.

Belə ki, dövlətin bədən tərbiyəsi və idmana diqqət və qayğısı nəticəsində ilk dəfə olaraq Naxçıvan MR-dan məktəbli qızları ADBTİ-nin hazırlıq şöbəsinə qəbul olunmuşlar. 1973-cü ildə 50 nəfərdən ibarət naxçıvanlı qızlar ADBTİ-nu bitirərək, Naxçıvan MR qayıtmış və hazırda, onlar bədən tərbiyəsi və idman ixtisasları üzrə müxtəlif tədris ocaqlarında çalışırlar.

Hazırda respublikada bədən tərbiyəsi və idman sahəsində müxtəlif vəzifələrdə 1786 nəfər qadın işləyir ki, bu da 1961-ci ildə olduğundan 1494 nəfər çoxdur. Onların çoxu respublikada bədən tərbiyəsi hərəkatının inkişafına böyük əmək sərf etmişlər. Bunlar Zeynab Rzayeva, Sara Əliyeva, Əminə Nurulla qızı, Sima Dəmirova, Ülkər Qasımova və başqalarıdır. İndi bütün şəhər və rayonların idman təşkilatları, ADBTİA-nın məzunları idmançı qadınların ustalıq səviyyəsinin yüksəlməsi üçün hiss olunacaq əmək sərf edirlər. Bunun da sayəsində son illər idmançı qadınlarımızdan “Azərbaycanın idman ustası”, “Əməkdar idman ustası”, “Azərbaycanın əməkdar məşqçisi”, “Azərbaycan Respublikasının əməkdar bədən tərbiyəsi və idman xadimi” adını alanlar çoxalır. Onlardan Yelena Quliyeva, Aynur Sofiyeva, Tanya Mirinova, Arzu Atayeva, Firuzə Qasımova, Təranə Abbasova, Ervira Cabbarova, Gülşən Şirinova, Zülfiyyə Hüseynova, Sevil Muradova və bir çox başqaları tanınmış idmançılardır.



## Sidneydən başlayan yol

Müstəqilliyimiz dövründə Azərbaycanın ən yaxşı qadın idmançılarımız arasında ən titullusu olan stend atıcısı Zemfira Meftaxetdinova dünya çempionu, Avropa çempionu, çoxsaylı beynəlxalq yarışların qalibi olub. 2000-ci ildə Sidneydə keçirilmiş Olimpiya Oyunlarında qadınlar arasında stend atıcılığı yarışlarında Azərbaycanı təmsil edən Zemfira 100 mümkün xaldan 98 xal toplayaraq, Olimpiya çempionu adını qazanıb. O, Olimpiya oyunlarında qadınlar arasında stend atıcılığında mərhələ və final yarışlarının ilk rekordçusudur.

Güllə atıcımız İradə Aşumova 1998-ci və 2002-ci illərdə dünya çempionatının gümüş medalını qazanıb. Sidney Olimpiadasının iştirakçısı olan İradə xanım, Afina Yay Olimpiya Oyunlarının bürünc mükafatçısıdır.



İdmanın ən fərqləndirici cəhətlərindən biri budur ki, yarışda həmişə yüksək dərəcədə əsəb gərginliyi və maksimum fiziki yükün öhdəsindən gəlmək tələb olunur. Ona görə də yarışlara ən möhkəm iradi keyfiyyətlərə malik olan idmançılar çıxa bilərlər. İdman yarışları ilə yanaşı mərdlik tərbiyə edən ən gözəl məktəblər məşq məktəbləridir. İdmançının qələbəyə nail olması üçün onun ciddi-cəhdlə arası kəsilmədən məşq etməsi, möhkəm rejim saxlaması, böyük və ağır yükə bacarıqla dözə bilməsi əsasdır. Bütün bunların nəticəsində mərdlik, iradə qüvvəsi, inadkarlıq, mətinlik, səbatlılıq və s. kimi xüsusiyyətlər formalaşır.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında idman sahəsində kadrların hazırlanması (1991-ci ilə müqayisədə) sürətlə artır. Təkcə onu demək kifayətdir ki, son beş il ərzində (2015-2020) idmançılarımız universiada, beynəlxalq yarışlarda, Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında, birinciliklərində 700-dən çox medal, o cümlədən 200-dən çox qızıl medal qazanılmış, 3600 idman normativlərini yerinə yetirmişlər (46 beynəlxalq dərəcəli idman ustası, 908 idman ustası, 2646 idman ustalığına namizəd). Olimpiya, dünya və Avropa çempionatlarında və birinciliklərində isə 274 medal qazanılmışdır ( Olimpiya oyunlarında 29 medal (14 qızıl, 6 gümüş, 9 bürünc, müstəqilliyimiz dövründə 6 qızıl, 6 bürünc), dünya çempionatında 132 medal (72 qızıl, 35 gümüş, 25 bürünc: müstəqilliyimiz dövründə 28 qızıl, 15 gümüş, 22 bürünc, 1991-1993-cü illər də 6 qızıl, 4 gümüş, 2 bürünc), Avropa çempionatında 113 medal (57 qızıl, 35 gümüş, 21 bürünc: müstəqilliyimiz dövründə 28 qızıl, 27 gümüş, 19 bürünc, 1991-1993-cü illər isə 4 qızıl, 2 gümüş, 1 bürünc)) qazanmışlar.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını 1933-2020-ci illərdə 3212 nəfər qadın bitirmişdir. Təkcə beş il ərzində (2015-2020) 272 nəfər qadın məzun olmuşlar. Onlardan 248-i azərbaycanlıdır.

Azərbaycan Respublikası öz dövlət müstəqilliyini elan etdiyi vaxtdan keçən otuz il ərzində digər ali təhsil müəssisələri kimi, ADBTİA-nın kadr hazırlığı sahəsindəki fəaliyyətinin metodologiyasına yenidən baxılmış, öz strateji funksiyasının prinsiplərinə milli dövlətçiliyimiz və mənafeimiz baxımından yanaşmalı olmuşdur. ADBTİA dövlətin sifarişlərinə əsasən respublika üçün bədən tərbiyəsi və idman sahəsində pedaqoji kadrlar hazırlayır. Öz vəzifələrinin aktuallığını və bu gün üçün böyük əhəmiyyət kəsb etdiyini akademiyanın rəhbərliyi və burada çalışan pedaqoji kollektiv dərindən dərk edərək, əməli vəzifələrini yerinə yetirməyə xüsusi qayğı ilə yanaşır. Əlbəttə, bu, ADBTİA-nın rəhbərliyinin, professor - müəllim heyətinin, onların yetirmələrinin gərgin əməyinin sayəsində mümkün olur. Bu əməyin şərəfli və nəcib məqsədi akademiya müəllimlərini daha coşqun və səmərəli işləməyə, yüksək ixtisaslı bədən tərbiyəsi və idman müəllimləri hazırlamağa ruhlandırır.

# UEFA: qitə çempionatının 12 şəhərdə keçirilməsi təsdiqlənib

UEFA rəsmiləri yayda təşkil olunacaq Avro-2020-yə ev sahibliyi edəcək assosiasiyaların - təşkilatçıların nümayəndələri ilə turnirlə bağlı əməliyyat məsələlərini müzakirə etmək üçün görüş keçiriblər. UEFA daha əvvəl açıqlanmış təqvimə uyğun olaraq, Avropa çempionatının 12 şəhərdə keçirilməsi ilə bağlı öhdəliyini təsdiqləyib. Tərəflər şəhərlərin üzləşdiyi müxtəlif çətinliklərin qarşısının alınması üçün turnirin təşkili ilə bağlı qərarların qəbulu prosesində çevikliyin vacibliyini qeyd ediblər. Bu və pandemiya fonunda tez-tez dəyişən situasiya nəzərə alınaraq, azarkeşlərin stadionlara buraxılması ilə bağlı planın təqdim olunması üçün müəyyənləşdirilən son tarix aprel ayına keçirilib.




UEFA-nın prezidenti Aleksander Çeferin deyib ki, UEFA Avropa çempionatının daha öncə planlaşdırıldığı kimi, 12 şəhərdə keçirilməsi öhdəliyinə sadiqdir. Avropa çempionatı milli komandalar üçün öncül turnirdir və futbolun bütün səviyyələrdə inkişafı üçün həyati əhəmiyyət kəsb edən maliyyə mənbəyidir. Turnirin vaxtı yaxınlaşdıqca vəziyyətin daha yaxşı olacağına optimist yanaşıram və oyunları qəbul edəcək şəhərlərə, hökumətlərə iyun-iyul aylarında nələrin həyata keçirilməsinin mümkün olacağı barədə ümumi mənzərənin necə olacağını müəyyənləşdirə bilmək üçün daha çox vaxt vermək lazımdır.

“Azarkeşlər futbola xüsusilik qazandırır və bu, istər Avropa çempionatı, istərsə də hər hansı digər oyun üçün belədir. Biz onların stadionlara qayıtması üçün əlimizdən gələn hər şeyi etməliyik”, - deyə UEFA prezidenti bildirib.

Qeyd edək ki, koronavirus pandemiyası ilə əlaqədar 2021-ci ilə təxirə salınan çempionata Bakı, Sankt-Peterburq, London, Münhen, Roma, Buxarest, Dublin, Kopenhagen, Bilbao, Qlazqo, Budapeşt və Amsterdam şəhərləri ev sahibliyi edəcək.

Bakı Olimpiya Stadionu turnirin A qrupunun İsveçrə-Uels, Türkiyə-Uels və Türkiyə-İsveçrə oyunlarına, həmçinin dörddəbir final mərhələsinin bir matçına ev sahibliyi edəcək. İsveçrə-Uels oyunu iyunun 12-də, Türkiyə-Uels qarşılaşması ayın 16-da, Türkiyə-İsveçrə matçı isə dörd gün sonra təşkil olunacaq. Bakıda baş tutacaq dörddəbir final mərhələsinin bir görüşü isə iyulun 3-də keçiriləcək. Avro-2020 iyunun 11-dən iyulun 11-dək keçiriləcək.

## *Dünya çempionatının yeni məkanı Qahirə olacaq*

Müasir beşnövçülük üzrə dünya çempionatı Qahirədə keçiriləcək. Bu barədə Beynəlxalq Müasir Pentatlon İttifaqının (UIPM) mətbuat xidməti məlumat yayıb. Misirdə dünya çempionatı iyunun 7-13-də təşkil olunacaq. Əvvəlcə yarışın Minskdə keçirilməsi nəzərdə tutulsa da, UIPM İcraiyyə Komitəsi Belarusdakı turniri ləğv etmək qərarına gəlib. Bundan əvvəl isə Minsk hokkey üzrə dünya çempionatına ev sahibliyi hüququndan da məhrum edilib.

## FİA böyük yarışa hazırlaşır

Beynəlxalq Avtomobil Federasiyasının (FİA) ikinci avtoidman oyunları 18 növ üzrə keçiriləcək. FİA-nın rəsmi saytına istinadla xəbər verir ki, növbəti turnirdə birinci avtoidman




yarışları yer alıb. İkinci avtoidman oyunlarının oktyabrın 29-dan 31-dək Fransanın Marsel şəhərində Pol-Rikar trasında keçirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, avtoidman oyunları ilk dəfə 2019-cu ildə İtaliyanın Roma şəhəri yaxınlığında yerləşən Vallelunqa trasında keçirilib. Yarışların qalibi Rusiya komandası olub. İkinci oyunların 2020-ci ildə keçirilməsi nəzərdə tutulsa da, koronavirus pandemiyası səbəbindən baş tutmayıb.

oyunlarının keçirildiyi 6 növə (GT, turinq, Formula 4, drift, virtual yürüş, kartinq slalom) yeniləri əlavə olunacaq. Yeni növlər sırasında “GT Sprint”, “Endurance”, “Rally2”, “Rally4”, “Historic Rally”, “Historic Regularity Rally” və kartinq

***İdman aləmində baş verən hadisələr o qədər zəngindir ki, onları bir kitaba yerləşdirmək qeyri-mümkündür. Gün ərzində bütün dünyada keçirilən yarışların hər birində yaddaqalan məqamlar olur. Bu məqsədlə keçmişə nəzər salmaq yerinə düşər. Oxucularına maraqlı yazılar təqdim edən “Olimpiya dünyası” bu dəfə dünya idmanında qeydə alınan, lakin çoxlarının bilmədiyi hadisələri və faktları bir araya toplayıb. Həmin faktlar bu günə kimi də, öz əhəmiyyətini qoruyub, saxlayır. Hesab edirik ki, sizə təqdim edəcəyimiz bu faktlar idman haqqında biliyinizi bir qədər də artıracaq.***

# İdmanda baş verən qeyri-adi hadisələr və qeydə alınan faktlar

### Adını oxumaq üçün güzgüyə baxmaq lazımdır

ABŞ-ın ikinci dərəcəli liqasında çıxış edən “Farqo-Murhed Tvins” klubunun beysbolçusu Conni Neves maraqlı hərəkəti ilə çoxunun diqqətini özünə çəkə bilib. O, çıxış etdiyi formadakı 7 rəqəmini və adını güzgü əksinə görə yazdırıb. Bunun səbəbini açıqlayan beysbolçu bildirib ki, belə olduğu təqdirdə onun adı və nömrəsi güzgü əksində ingilis dilində “seven” olmaqla bir-birini tamamlayır.


Neves-seveN
JOHNNY NEVES, 23-year-old rookie with Fargo-Moorhead of the Northern League

### Əyalət klubunda dəyişməyən qayda

İspaniya La liqasında çıxış edən Bilbao “Atletik”i özünəməxsus xüsusiyyəti ilə seçilir. İspaniyanın şimalında yerləşən Bask əyalətini təmsil edən klubun




heyətində yalnız yerli və bask əsilli futbolçular çıxış edə bilər. Yeri gəlmişkən, qeyd edək ki, “Atletik” buyaxınlarda İspaniya Super kubokunun finalında “Barselona”ya qalib gələrək, tarixində üçüncü dəfə bu titula yiyələnib.

### Qəzet özünü nokdaunla reklam edib

2000-ci ildə Mayk Taysonla Julius Frensis arasında keçirilən döyüşdə azarkeşlər kimin daha güclü olduğunu əvvəlcədən proqnozlaşdırmışdılar.



Bu dueldə “Dəmir Mayk” favorit hesab olunurdu. Hətta İngiltərənin tanınmış “Mirror” nəşri Frensisin ayaqqabısının altına öz adını reklam kimi yerləşdirmişdi.

Məqsəd nokdaun zamanı yıxılan Frensisin ayaqqabısında “Mirror” sözünün oxunması idi.

### Qol vurmadan qələbə qazanmaq olarmış




Belçikalı futbolçu Sten van den Bays ölkə çempionatında öz tarixi antirekordu ilə yaddaşlarda qalıb. 1995-1996-cı illər mövsümündə “Jerminal Ekeren”-”Anderlext” matçında o, öz qapısına üç top vurub. Baysın komanda yoldaşları isə bu topun əvəzini cəmi iki dəfə çıxa biliblər. Nəticədə bu görüşdə “Anderlext” qol vurmadan üç xal əldə edib.

### Öz qapısına qol vurub, mükafatsız qalan “qəhrəman”

1974-cü ildə keçirilən dünya çempionatında finala qədər irəliləyən Niderland millisi rəqib qapılarından 14 top keçirib. Öz qapısında isə cəmi bir qol görüb. Maraqlıdır ki, həmin topu komandanın öz futbolçusu olan Ruud Krol öz qapısına vurub. O, Bolqarıstan millisi ilə görüşün 78-ci dəqiqəsində fərqlənib. Məhz bun-



dan sonra “narıncılar” yığmanın sponsorlarından Krol üçün mükafat tələb ediblər. Yalnız avtoqolla bağlı sponsorlarla bağlanılan müqavilədə heç bir bənd olmadığı üçün Ruud Krollun “qəhrəmanlığı” mükafatsız qalıb. Lakin 1974-cü ildə baş vermiş bu hadisədən sonra artıq müqavilələrdə belə hallar üçün xüsusi bənd yerləşdirilib.

### Bütün tituları qazanıb, ölkə çempionu olmayan ulduz

Rusiyalı fiqurlu konkisürən Aleksey Yaqudin karyerası ərzində dörd dəfə dünya, üç dəfə isə Avropa çempionu



adını qazanıb. O, 2002-ci ildə Solt-Leyk-Sitidə keçirilən XIX Qış Olimpiya Oyunlarında fərdi yarışlarda qızıl medala yiyələnib. Maraqlıdır ki, Yaqudin bu qədər uğura baxmayaraq, heç vaxt Rusiya çempionatında fərqlənə bilməyib.

### Dörd top vurub, bir xal qazanan futbolçu

1976-cı il martın 20-də “Aston Villa”-“Lester Siti” matçında qeyri-adi hadisə baş verib. Bu görüşdən sonra Kris Nikoll tarixə düşüb. O, 2:2 hesabı ilə başa çatan



matçda 4 topun müəllifi olub. Belə ki, “Aston Villa”lı futbolçu iki topu öz, iki topu isə rəqib qapısından keçirib.

### Roma olimpiadası digər olimpiadalardan nə ilə fərqlənib?

Adətən Olimpiya oyunlarında loqoda 2 (Barselona-92) və yaxud 4 (Pekin-2008) rəqəm yer alır. Lakin tarixdə ilk




dəfə olaraq loqoların birində 5 rəqəm yazılıb. Belə ki, 1960-cı ildə Romada keçirilən Yay Olimpiya Oyunlarında tarix 5 hərfdən ibarət olub - MCMLX.

*(ardı var)*

***Hazırladı: Anar Əhmədov***

# FUTBOL

# Avropadan transfer xəbərləri



## İngiltərə

İngiltərənin "Mançester Yunayted" klubu müdafiəçisi Markos Roxo ilə yollarını ayırır. Argentinalı cinah oyunçusu karyerasını vətənində davam etdirəcək. 30 yaşlı futbolçu "Boka Xuniors"la razılığa gəlib. Roxo yeni komandası ilə 2 illik müqavilə imzalayacaq. Razılığa əsasən, bu müddət daha 1 il uzadıla bilər. Qeyd edək ki, Markos Roxo 2014-cü ildən "Mançester Yunayted"də çıxış edirdi.

"Mançester Yunayted" Odion İqalo ilə də yolları ayırıb. 31 yaşlı hücumçu ilə başa çatan icarə müqaviləsinin müddəti uzadılmayıb. Beləliklə, o, müqavilə ilə məxsus olduğu Çinin "Şanxay Şenxua" klubuna qayıdıb.

Qeyd edək ki, İqalo ötən ilin yanvarında icarə əsasında "Mançester Yunayted"ə keçmişdi. O, İngiltərə təmsilçisində 23 oyunda 5 qol vurub, 1 qolun ötürməsini verib.

"Mançester Yunayted" "Hoffenhaym"ın yarımmüdafiəçisi Kristof Baumqartneri heyətinə cəlb etməyə yaxındır.

21 yaşlı avstriyalının qış transfer pəncərəsinin sonunadək Mançester klubuna keçəcəyi gözlənilir. Onun qiyməti 18 milyon avro ilə dəyərləndirilir. Qeyd edək ki, Baumqartner cari mövsümdə 25 oyunda 6 qol vurub.

* * *

PSJ-nin futbolçusu Anxel Di Mariya karyerasını "Tottenhem"də davam etdirə bilər. Argentinalı oyunçunun Paris təmsilçisi ilə müqaviləsinin



müddəti isə bu yay başa çatacaq. O, paytaxt klubu ilə razılıqdan məmnun deyil. Qeyd edək ki, Di Mariya "Real"da da Mourinyonun baş məşqçiliyi altında çıxış edib. Portuqaliyalı mütəxəssis 2010-2013-cü illərdə Madrid təmsilçisində işləyib. Di Mariya isə 2010-2014-cü illərdə bu komandada oynayıb.

* * *

"Arsenal" Şkodran Mustafi ilə yolları ayırmağa hazırlaşır. Almaniyalı müdafiəçinin müqaviləsi mövsümün sonuna qədər olsa da, London klubu onunla daha tez vidalaşmaq istəyir. Qeyd edək ki, Almaniya millisinin sabiq üzvü 2016-cı ildə "Valensiya"dan "Arsenal"a keçib.

Əvəzində Madrid "Real"ının futbolçusu Martin Edeqorun "Arsenal"a keçidi rəsmiləşib. Norveç millisinin də üzvü olan 23 yaşlı yarımmüdafiəçi mövsümün sonuna qədər icarə əsasında "topçular"da çıxış edəcək. Qeyd edək ki, Martin Edeqor ötən mövsümü icarə əsasında İspaniyanın "Real Sosyedad" klubunda keçirib.

* * *

"Çelsi" Abdul Rəhman Babanı icarəyə verib. Qanalı müdafiəçi mövsümün sonuna qədər Yunanıstanın PAOK klubunda çıxış edəcək. Qeyd edək ki, Baba bundan əvvəl icarə əsasında "Malyorka"da oynayıb.

## İspaniya

"Sevilya" "Atalanta"nın yarımmüdafiəçisi Papu Qomesi transfer edib. Argentinalı oyunçu ilə 2024-cü ilin yayına qədər müqavilə imzalanıb.




İtaliya mətbuatı bu transfer üçün İspaniya təmsilçisinin 5,5 milyon avro və 3 milyon avro bonus ödəyəcəyini yazıb. Qeyd edək ki, Qomes bu mövsüm A seriyasında 10 oyunda 4 qol vurub.

* * *

Madrid "Real"ının futbolçusu Lukas Vaskes komandanı tərk edəcək. Buna səbəb kimi 29 yaşlı yarımmüdafiəçi ilə Madrid təmsilçisi arasında danışıqların alınmaması göstərilir.

Tərəflər yeni anlaşma ilə bağlı uzun müddət müzakirələr aparsa da, ortaq məxrəcə gələ bilmir. Lukas komandada ən çox şans qazanan futbolçulardan olsa da, klub rəhbərliyi danışıqlarda güzəştə getməyib.

* * *

İspaniyanın "Saraqosa" klubunda çıxış edən Şindzi Kaqava karyerasını Yunanıstanda davam etdirəcək. Yaponiyalı yarımmüdafiəçi PAOK-a keçib. Bu barədə Saloniki təmsilçisinin mətbuat xidməti məlumat yayıb. 30 yaşlı futbolçu ilə 1,5 illik müqavilə imzalanıb.

Qeyd edək ki, karyerası ərzində Almaniyada "Borussiya" (Dortmund), İngiltərədə "Mançester Yunayted", Türkiyədə "Beşiktaş" kimi klublarda da çıxış edən Kaqava, oktyabr ayından azad agent idi. O, Yaponiya millisində 97 oyunda 31 qol vurub.

## Almaniya

Münhen "Bavariya"sı "Bazel"də çıxış edən Dimitri Aberlinlə bu ilin iyununa kimi müqavilə imzalayıb. 23 yaşlı hücumçunun əvəzedici komandaya qoşulacağı bildirilib. Qeyd edək ki, Aberlin ötən ilin dekabrında İsveçrə təmsilçisi ilə müqaviləni ləğv etmişdi.

* * *

Dortmund "Borussiya"sı Yulian Brandtı heyətdə saxlamağa qərar verib. İngiltərənin "Arsenal" klubu Brandtın xidmətində maraqlı olsa da, Bundesliqa təmsilçisi Yulianı satmamaqda israrlıdır. O, ən azı yay fasiləsinədək "Borussiya"da qalacaq.

Qeyd edək ki, Brandt cari mövsüm 17 oyunda 1 qol vurub.

"Milan" futbolçusu Lorenzo Kolombonu icarəyə verib. 18 yaşlı hücumçu karyerasını B seriyası klubu "Kremoneze"də davam etdirəcək. O, cari mövsümün sonunadək bu komandanın formasını geyinəcək. Qeyd edək ki, Kolombo bu mövsüm 4 oyun keçirib.

"Yuventus" klubunun Almaniya "Bavariya"sına icarəyə verdiyi Duqlas Kosta karyerasını yenidən A seriyasında davam etdirə bilər.

30 yaşlı hücumçu "Milan"ın transfer siyahısında yer alıb.

Milanlılar Kostanı qış transfer pəncərəsinin sonunadək heyətinə qatmağı planlaşdırır.

Bu keçidin reallaşmasında yeganə problem Duqlasın maaşının yüksək olmasıdır. Onun illik qazancı 6 milyon təşkil edir.

Qeyd edək ki, Kosta cari mövsüm 19 oyunda 1 qol vurub.




## İtaliya

"Yuventus" "Marsel"in hücumçusu Marli Akeni transfer edib.

Bu barədə A seriyasının rəsmi saytı məlumat yayıb.20 yaşlı hücumçu 18 yaşlı yarımmüdafiəçi Franko Tonqya ilə dəyişdirilib. Klubların özləri bu transferi açıqlamayıblar.

Qeyd edək ki, Ake "Marsel"in yetirməsidir. O, bu mövsüm 13 matçda meydana çıxıb.

"Yuventus" "Lion"nun yarımmüdafiəçisi Ussam Auarı transfer etmək istəyir. A seriyası




klubu bugünlərdə 22 yaşlı fransalının agenti ilə danışıqlara başlayacaq. "Yuventus" keçidi yay transfer pəncərəsində reallaşdırmaq niyyətindədir.

Qeyd edək ki, PSJ və "Arsenal"ın da maraq dairəsində olan Auarın Fransa təmsilçisi ilə müqaviləsi 2023-cü ildə başa çatacaq.

* * *

"Latsio" "Milan"ın futbolçusu Mateo Mussakionu transfer edib. Bu barədə klubun saytı məlumat yayıb. Transferin detalları açıqlanmayıb. Qeyd edək ki, Mussakio 2017-ci ildən "Milan"da oynayıb. O, mövsüm ərzində cəmi 1 oyuna çıxıb.

* * *

İtaliyanın "Fiorentina" klubu heyətini daha bir futbolçu ilə gücləndirib. Bir müddət əvvəl rusiyalı Aleksandr Kokorinlə müqavilə imzalayan A seriyası təmsilçisi Kevin Malkomun da keçidini rəsmiləşdirib.

Müdafiəçi "Napoli"dən Florensiya klubuna keçib. 29 yaşlı fransalı mövsümün sonunadək icarə əsasında "Fiorentina"nın formasını geyinəcək. Qeyd edək ki, Malkom cari mövsümdə 2 oyun keçirib.

## Türkiyə

"Qalatasaray" Misirin "Zamalek" klubunun hücumçusu Mustafa Mohamedi 1,5 illik icarəyə götürüb. Misir klubunun mətbuat xidmətinin rəhbəri İssam Salem "Qalatasaray"ın 2 milyon dollar icarə haqqı ödəyəcəyini bildirib.

"Qalatasaray" əlavə 4 milyon dollar ödəyərək 24 yaşlı oyunçunu birdəfəlik almaq hüququna da sahibdir.

Qeyd edək ki, M.Mohamed bu mövsüm Misir Liqasında çıxdığı 4 matçda 2 qol vurub. O, 4 dəfə Misir millisinin formasını geyinib.

* * *

"Beşiktaş"ın sabiq futbolçusu Duşko Toşiç yenidən Türkiyəyə qayıdıb. Serbiyalı müdafiəçi "Kasımpaşa"da çıxış edəcək. Klubun rəsmi saytı 36 yaşlı futbolçu ilə mövsümün sonuna qədər müqavilə imzalandığını açıqlayıb. Qeyd edək ki, 2015-2018-ci illərdə "Beşiktaş"da çıxış edən Toşiç son olaraq Çinin "Quançjou Fuli" klubunda oynayıb.

***Almaniyalı qapıçı Bert Trautman 1950-ci ildə bütün dünyada məşhurlaşdı. Belə ki, "Mançester Siti"nin həyatında İngiltərə Kubokunun finalında "Birmingem"lə qarşılaşmada boynunu sındırdı. Lakin belə ağır vəziyyətdə oyunu sona qədər davam etdirdi. O, futbolu bir kənara qoyub, nasist Almaniyasının tərkibində döyüşlərə qoşuldu. Bert Trautman haqqında bəhs edən yazını oxucularımıza təqdim edirik.***





# "Qol düşməni"

## *"Hitlerə xidmət edib, üç dəfə əsirlik həyatı yaşayan futbolçu. O, sonralar "Mançester"in ulduzu oldu"*

### Fürer sevgisi

Trautman uşaq yaşlarında çox zəif bir görünüşə malik idi. Lakin o, idmana böyük həvəs göstərirdi. İdmanda ilk addımlarını həndbolla atan bu yeniyetmə sonradan öz bacarığını futbolda sınadı. Birmingem şəhərinin "Tur" komandasında məşqlərə başlayan Bert tezliklə məşqçilərin diqqətini çəkdi. Ona yeni formalaşan heyətdə hücumçu mövqeyini etibar etdilər. Trautman təkcə idmanda uğur qazanmaqla kifayətlənmirdi. O, ictimai-siyasi sferada da fərqlənmək arzusunda idi. Həmin ərəfələrdə onda "Adolf Hitler sevgisi" yaranmışdı. Elə bu məqsədlə "Hitleryugetvo" (Milli Sosialist Alman Fəhlə Partiyasının gənclər təşkilatı) sıralarına qoşuldu. 1940-cı ildə isə bu ideyanı rəhbər tutaraq, cəbhəyə yollandı.

1944-cü il oktyabr ayının əvvəlində Trautman Almaniyanın Kleve şəhərində idi. Həmin vaxt cəmi bir neçə saat ərzində sovet bombardımançıları şəhəri darmadağın etdilər. Orada böyük dağıntılar baş vermişdi. Bert və onun əsgərləri üç gün dağılmış bir məktəbin xarabalıqlarının altında qalmışdı. Onlar möcüzə nəticəsində sağ qala bilmişdilər. Bəli, bu müharibədir,



onun öz qanunları var. Belə hadisələr tez-tez baş verirdi. Lakin hər dəfə Bertin bəxti gətirirdi. Lakin bir dəfə alman kəndlərinin birində o, amerikalı əsgərlər tərəfindən yaxalanmaq təhlükəsi ilə üz-üzə qalır. Amma Trautman bu vəziyyətdə də özünü xilas edə bilir. Belə ki, o, hündür hasarı aşıb, digər tərəfə keçir. Hasarın bu tərəfində Bert britaniyalı əsgərlərlə üz-üzə qalır. Əsgərlərdən biri silahı ona tuşlayıb, zarafatla deyir: "Xoş gördük cənab, çay içəcəksiz?"

### Cəbhədən futbola

Lakin Trautmanın qaçmaq üçün üçüncü cəhdi baş tutmur. Cəsur almaniyalı təqib olunaraq, tutulur. İngiltərədəki "Lankaşirin" hərbi əsir düşərgəsinə göndərilir. O, ikinci Dünya müharibəsi başa çatana qədər orda qalır. Taleyi ilə barışan Bert həbsxana yoldaşları ilə birlikdə dağılmış binaların bərpasına cəlb olunur. İstirahət saatlarında düşərgədə təşkil olunan futbol matçlarında iştirak edir.

Trautman yarımmüdafiədə ən etibarlı futbolçu idi. Bert oyunların birində də hiss edir ki, qapıçı mövqeyində də bacarıqlıdır. Həvəskarlardan ibarət komanda "Heydok Park" kollektivi ilə yoldaşlıq görüşü keçirərkən, heyətdə Bertdə iştirak edir. O, bu qarşılaşmada zədə alır. Lakin meydanı tərk etmir. Qərara alır ki, mübarizəni qapıda davam etdirsin. Buna görə də o, qapıçını yarımmüdafiəyə göndərir. Elə bu matçdan etibarən Bert həmişəlik qapıçı mövqeyində yer alır.

1948-ci ildə Böyük Britaniya hökuməti qərara alır ki, Trautman bu müddət ərzində cəzasını çəkmişdir. Ona görə də onu, vətənə, Almaniyaya qaytarmaq barədə qərar verilir. Bertin özü bu təklifdən imtina edir. Buna bir səbəb var idi. Trautman əslən ingilis olan Marqaret Frayarla evlənmişdi. Qızın atası Cek Frayar Bertin həqiqi qohumu kimi məhkəmədə iştirak edərək, onu burada saxlamağa müvəffəq olur. Məhkəmə qərarından sonra Bert İngiltərədə qalır. Fermada işləyən Bert həm də dördüncü ingilis diviziya komandası "Sent-Helens Taun"da katib vəzifəsinə təyin olunur.

### Bağışlamağı bacarmaq

Bert "Sent-Helens Taun" komandasında sezonu başa vurmaqla, yerli azarkeşlərin diqqətini çəkə bilir. Trautman təcrübəli oyunçular kimi ayaq hərəkətləri ilə maraqlı çıxışlar nümayiş etdirirdi. O, "Mançester Siti"ilə yoldaşlıq qarşılaşmasında yüksək ustalıq nümayiş etdirir. Şəhərin meri 26 yaşlı Trautmanın oyunundan çox razı qalır. 1949-cu ilin oktyabr ayında onunla klub arasında razılıq əldə olunur.

O vaxt "şəhərlilər" alman qapıçı ilə bağlanmış bu müqavilədən sonra yaranacaq problemdən xəbərsiz idilər. Belə ki, Mançesterdə kütləvi şəkildə yəhudi icması yaşayırdı. Tezliklə icma nümayəndəsi Trautmanın tərcümeyi-halı ilə tanış olaraq, bu məlumatı hər yerə yayır. Artıq həmin ərəfədə müharibədən dörd il keçmişdi. Bir neçə alman milli ordeni və medalları ilə tərtif olunmuş yaraşıqlı ağbəniz klub azarkeşlərinin qəzəbinə tuş gəldi.

Müqavilə bağlandıqdan dərhal sonra "Mançester Siti" klubunun ofisinə almaniyalı futbolçunun qovulmasını tələb edən məktub daxil oldu. Azarkeşlər oyunçuları matç zamanı baykotla hədələyirdilər. Hətta bir dəfə şəhərdə 20 min fanatın iştirakı ilə piket də keçirilir. Nümayişçilər Trautmanı təhqiramiz sözlər yazılmış plakatlarla tənqid edirdilər. Qışqıraraq, "pis nasist"dən yaxa qurtaraq!" şüarları ilə komanda rəhbərliyinə qarşı çıxışlar edirdilər.

Klub yoldaşları və komandanın həkimi Altman Bertmanı müdafiə edirdilər. Həkim şəhər qəzetlərinin birində açıq-aydın məktubla çıxış edərək, tezliklə bu ağılsızlığa son qoya bildi. Müraciətdə belə yazılırdı: "Əlbətdə, biz almanların əli ilə çox əzablar çəkdik. Amma gəlin bir ölkənin törətdiyi cinayətə görə, bir nəfəri öz nifrətimizlə cəzalandırmayaq". Bu sözlərdən sonra Mançesterin ən kriminal avtoriteti belə Trautmanı məhv etməkdən vaz keçdi.

İkinci Dünya müharibəsi zamanı dağıdılmış İngiltərə şəhərlərində Trautmanın ünvanına azarkeşlər tərəfindən tez-tez təhqiramiz sözlər səslənirdi. Amma bu dəmir xarakterli futbolçunu sındırmırdı. O, fanatlara fikir vermədən öz işini görürdü. Çox keçmədi ki, özünəinamlı oyunu və yüksək ustalığı nəticəsində bütün İngiltərəyə özünü sevdirdi .

### Əfsanəvi "Siti"

15 il ərzində Trautman "Mançester Siti" klubunda əvəzedilməz qapıçıya çevrildi. O, komandası ilə birlikdə ikinci pilləyə yüksəldi. Bert tez-tez komandasını çətin vəziyyətlərdən çıxarır və tərəf müqabillərini idarə etməyə çalışırdı. Buna baxmayaraq, komanda uğursuzluqla üzləşdi. Mövsüm "Mançester Siti" üçün uğursuz oldu. İngiltərə Kuboku uğrunda keçirilən final - "Nyukasl" - "Mançester Siti" qarşılaşması 1:3 hesabı ilə başa çatdı.



Növbəti mövsümdə "Mançester Siti" həledici turnir matçında "Birmingem" lə qarşılaşdı. Hesab 3:1 olsa da, qapıçı oyunun bitməsinə 15 dəqiqə qalmış rəqib komandanın oyunçusu Piter Merf tərəfindən zərbə aldı. Trautman zərbədən huşunu itirir və yalnız naşatır spirtinin köməyi ilə özünə gələ bilir. O, zorla ayağa qalxsa da, başa düşür ki, boynunu çevirə bilməyəcək. Belə məqamda heç bir əvəzedici qapıçıdan söhbət gedə bilməzdi. Çünki o vaxt qaydalara görə, bu mümkün deyildi. Qapıçını komandanın oyunçularından biri əvəz edə bilərdi. Belə olduqda isə komanda azalaraq, zəifləyə bilərdi. Cəsur almaniyalı bu addımı ata bilməzdi. Bert başı dumanlı vəziyyətdə oyunu başa vurdu. Az qala başını əli ilə tutmuşdu. Qapıçı bu anlaşılmaz vəziyyətdə komandanın qələbə hesabını qoruya bildi. Bir neçə ildən sonra qapıçı bu hadisəni belə xatırlayırdı: "Matçın video yazısını televizordan izləyəndə başa düşdüm ki, oyunun son dəqiqələrini xatırlamıram. Mənə elə gəlir ki, mən heç orda olmamışam."

Qeyri-insani ağrılar hiss edən Trautman meydançada uzanıb, heç bir hərəkət edə bilmirdi. Kiçik uğursuz hərəkət onun həyatına son qoya bilərdi. Matç bitdikdən sonra futbolçunu xəstəxanaya yerləşdirdilər. Həkim heyrətə gələrək, ona bir neçə boyun fəqərəsinin sınığı diaqnozunu qoymuşdu.

Trautmanın "Mançester Siti" klubundakı uzunmüddətli karyerası İngiltərə Kuboku qələbəsi titulu ilə yadda qaldı. Parlaq futbolçuların siyahısında klubun tarixində "cəsarətli qapıçı" titulu ilə möhkəmlənə bildi. Trautman 545 matçda iştirak etmişdi. 1964-cü ildə klubdan uzaqlaşan qapıçı bir ildən sonra butsları (futbol ayaqqabısı) mıxdan asdı.

Trautman peşəkar karyerası bitdikdən sonra özünü məşqçi kimi sınamağa başladı. Xüsusi bir uğur əldə edə bilmədi. Çünki, o aşağı səviyyəli ingilis və alman klublarında işləyirdi.

Onun həyatı futbol meydançasına məhkum olunmuşdu. 1960-cı ildə qapıçı Marqaret Frayardan boşanır. Daha sonra o, üç dəfə də evli olur. Bert 2004-cü ildə növbəti mükafatını alır.

Bret Trautman İngiltərə və Almaniya münasibətlərini birləşdirən Böyük Britaniya imperiyasının hərbi ordeni ilə təltif olunur. Trautman qalan ömrünü İspaniyanın Valensiya şəhərində, kiçik evində keçirir. Keçmiş futbolçu 2013-cü il 19 iyunda 90 yaşına bir neçə ay qalmış dünyasını dəyişir. Onu tanıyanlar və onunla birlikdə futbol oynayan futbolçular "qol düşməni" deyə çağırırdılar. Çünki o qorduğu mövqedə qol buraxmamaq üçün canını belə verməyə hazır idi.

Həmin ilin martında Almaniyada əfsanəvi qapıçı Bret Trautmanın həyatı haqqında "The Keeper" adlı filmin primyerası nümayiş etdirilib.

***Hazırladı:***
***Anar Əhmədov***

# Dünya idmanı



## Hemilton: “Bu rəqəmi çətinliklə tələffüz edirəm”

Formula 1 üzrə yeddiqat dünya çempionu Lüis Hemilton karyerası ilə bağlı əsas hədəfini açıqlayıb. “Mercedes”in 36 yaşlı pilotu “Sportweek” nəşrinə açıqlamasında 8-ci dəfə çempionluq qazanmaq istədiyini bildirib. O, hazırda bu vəzifəyə kökləndiyini söyləyib: “Səkkizinci titul inanılmaz olardı. Hətta bu rəqəmi çətinliklə tələffüz edirəm. Amma tamamilə həmin hədəfə fokuslanmışam. Lazımi dəstəyin olduğunu bilirəm”. Qeyd edək ki, 2020 mövsümündə 7-ci dəfə çempion olan Lüis Hemilton “Ferrari”nin əfsanəvi pilotu Mixael Şumaxerin nəticəsini təkrarlayıb.




olimpnews.az - sizin saytınız






Ufüqi

2. Qış idman növlərindən biri. 5. NHL-də Pensilvaniya ştatını təmsil edən klub. Beşqat Stenli kubokunun qalibi “.....Pinqvins”. 7. Niderland millisinin və “Ayaks”ın futbolçusu. 8. Hokkeydə cərimə zərbəsi. 12. Formula 1 yarışlarının keçmiş iştirakçısı olan yaponiyalı pilot. 13. Sumo yarışlarında ustalıq dərəcəsi. 14....avarçəkmə. 17. Tələbələrin Yay Universiadasına ev sahibliyi etmiş İtaliya şəhəri.

Şaquli

1. Kerlinq yarışlarında komandanın kapitanı. 3. Boksda baş nahiyəsinə aşağıdan yuxarı vurulan zərbə. 4. Bolqarıstanın “şahmat şəhəri”. 6. “Çelsi”yə yeni təyin olunmuş baş məşqçi. 9. Hollandiya çempionatında çıxış edən klub. 10. İsveçrənin “püşk şəhəri”. 11. Hindistan super liqasında çıxış edən klub. 15. Sloveniyanın Murska-Sobota şəhərinin futbol komandası. 16. Atçılıq idman növündə atların təlimi ilə məşğul olan şəxs. 18. Bir matçda eyni futbolçunun vurduğu 4 qol.

## Messi “Barselona”dan narazıdır

“Barselona” kapitan Lionel Messinin məvacibinin mediada yayılması məsələsi ilə bağlı bəyanat yayıb.

Bəyanatda sənədin yayımlanması ilə bağlı klubun heç bir məsuliyyət daşımadığı qeyd olunub. Həmçinin, məvacibi yayımlayan “El Mundo” nəşri ilə bağlı qanuni addımların atılacağını bildirib.

İspaniya mətbuatı məvacibinin mətbuatda yayılmasından sonra Messi ilə klub arasında münasibətlərin pisləşdiyini yazıb.





Qeyd edək ki, “El Mundo” nəşrinin yaydığı məlumatda Messinin 2017-ci ildə imzaladığı 4 illik müqavilə ilə 555 milyon avro qazandığı bildirilib.

## “Bavariya” futbolçusuna güzəştə getmədi

“Bavariya” futbolçusu Korentin Tolissonu əsas komandadan uzaqlaşdırıb. Buna səbəb kimi futbolçunun döymə etdirməsi göstərilir. Koronavirusla bağlı qaydaları pozaraq döymə etdirən 26 yaşlı futbolçu əsas komandadan uzaqlaşdırılıb və ona pul cəzası verilib. Klubun idarə heyətinin sədri Karl-Haynts Rumenigge də bu məlumatı təsdiqləyib.

## Avropada yeni titul: Super çempion

Futbol Super Liqasını yaratmaq fikri UEFA rəsmilərini təşvişə salıb. Belə ki, Çempionlar Liqası üçün yeni format planlaşdırılır. Avropanın əsas futbol qurumu Çempionlar Liqasının strukturunu yenidən nəzərdən keçirmək üçün ən yaxşı klubları dəvət etməyə hazırdır. Məlumata görə, UEFA prezidenti Aleksander Çeferin artıq Avropa Klublar Birliyinin beş nümayəndəsi - “Real”, “Yuventus”, “Mançester Yunayted”, PSJ və “Fənərbağça” ilə danışıqlar aparır. Çeferin Avropanın ən böyük klublarına yeni turnirdə daha təsirli bir rol verməyə hazırlaşmaqla yanaşı, onları təmin edəcək yeni bir gəlir bölgüsü sistemi inkişaf etdirməyə hazırlaşır. Yeni yarışın necə idarə ediləcəyi, qurulacağı və planlaşdırılacağı, ondan əldə olunan gəlirin necə bölünəcəyi - bunlar Ceferin və klublar arasında keçirilən görüşlərdə müzakirə olunan əsas məqamlardır.



Avropanın ən yüksək liqalarındakı komandaların sayı 16-ya, daxili kuboklar isə 4-5 tura endirilə bilər. Yeni yarışın 2023-cü, yaxud 2024-cü ildə start götürəcəyi güman edilir. Turnir Super Çempion adlandırılacaq.


Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.



DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.



E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19